# SEVGİLƏRİN SONU YOXDUR,

## *yaxud "Aşiqliyin işığında" kitabı üzərində düşüncələr*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

Hz. Əli ibn Əbu Talib obrazını təkcə şərq xalqları, İslam aləmi deyil, Avropanın, Amerikanın tarixçiləri və islamşünas alimləri bu gün də maraqla öyrənməkdədirlər. 14 əsrdən çoxdur ki, insanların Əli obrazına marağı nəinki azalmır, hətta zaman keçdikcə onun şəxsiyyətinə və zəngin mənəvi irsinə sevgi hissləri qarşısıalınmaz bir şəkildə artmaqda davam edir. Bəs buna səbəb nədir?

Hər halda, Hz. Əli obrazı ilə bağlı belə bir qənaət mübahisə doğurmur; o, İslamın bərqərar olması yolunda fədakarlıqla mübarizə aparıb, ən kəskin dini mübahisələri belə ağlın və məntiqin gücü ilə ədalətli həll etməyə çalışıb. Yəni, Hz. Əli haqqında az-çox məlumatı olan hər kəs belə bir rəylə razılaşır ki, o, öz ədaləti ilə zamanının fərqli bir insanı kimi tanınıb. Haqsızlığa qarşı, əgər belə demək mümkünsə, qəddar olub. Zalımın məzluma qarşı hər hansı bir təzyiqi onun üçün qəbuledilməzdir.

Əlinin cəsarəti, meydangirliyi, savaş qüdrəti haqqında da əfsanələr davamlı şəkildə yaddaşlarda yaşamaqdadır. Həm də bu münasibət onun həyatı ilə bağlı faktlarla uyğun gəlir. Çünki Əli görkəmli hərb xadimi kimi də tanınır. İslamın ilk illərində dini qəbul etmək istəməyən, bu dini beşiyindəcə boğmaq üçün savaş aparanlara qarşı cəsarətlə döyüşüb. Ərəbin təcrübəli və ən güclü cəngavərlərindən birini Xəndək savaşında, üzbəüz döyüşdə məğlub edib. Onun belə cəsarətli savaşları az olmayıb. Bütün bunlar öz yerində.

İndi daha çox Hz. Əlinin mənəvi irsi öyrənilir. Onun düzlük, doğruluq, adilliklə bağlı deyimləri, düşüncələri əxlaqi tövsiyyələri bu gün insanların mənəvi yaşam düsturuna çevrilib. Məşhur "Nəhcül-bəlağə" traktatında toplanmış xütbələr, çıxışlar o böyük həzrətin dəyərli hikmət və nəsihətləri bəlağət ustadlarının nitqlərini bəzəyir. Onun sözlərindən yerli-yerində istifadə edənlər öz danışıqları ilə insanların ruhlarını işıqlandırırlar.

Hz. Əli obrazını ən müxtəlif yönümlərdən işıqlandıran tarixi, dini məzmunlu əsərlər çoxdur. Onun haqqında çox dəyərli bədii filmlər çəkilib, romanlar, hekayətlər yazılıb. Ən başlıcası, Şərqin böyük şairləri onun möhtəşəm obrazını öz poeziyaları ilə sonsuz şövqlə tərənnüm ediblər.

Azərbaycanda da Əli obrazına müraciət edən sənətkarlar az deyil. Onun haqqında saysız söz sahibləri dəyərli qəsidələr, poemalar, müxtəlif poetik janrlarda əsərlər yaradıblar. Maraqlıdır ki, Hz. Əli obrazı müasirimiz olan şairlər tərəfindən də həmişə diqqətdə saxlanılıb. Əli Rza Xələflinin "Hələ dünya bilmir ki..." adlı qəsidəsi 2016-cı ildə qələmə alınıb. Sonra təkrar-təkrar müxtəlif mətbuat orqanlarında, ədəbi dərgilərdə işıq üzü görüb. Ə.Xələfli qəsidənin əvvəlində belə bir epiqraf yazır: "Mən Hz. Əlini böyük din xadimi olmaqdan başqa, həm də ən ədalətli hakim, parlaq natiq və böyük filosof kimi qavrayıram". Zənnimcə, bu yanaşma çox doğrudur. Ümumiyyətlə, Hz. Əli obrazını qavramaq üçün onun şəxsiyyətini dərk etmək çox vacibdir. Bu mənada, Xələfli də "Hələ dünya bilmir ki..." adlı qəsidəsində onun bir şəxsiyyət kimi ən müxtəlif tərəflərini poetik tərənnümə layiq görür.

Yuxarıda qeyd etdim ki, Hz. Əlinin şəxsiyyətinə sevgi heç vaxt sөngimir. Bu münasibəti biz Əli Rzanın ona həsr etdiyi poetik əsərlərindən də duyuruq. Belə ki, Ə.Xələfli vaxtı ilə və oxucular tərəfindən sevilən qəsidəni mahiyyətinə bir daha qayıdır. O, həmin qəsidəni təxmis edərək yazdıqlarına daha geniş vüsət bəxş edir.

Hətta bununla da işi bitmir. Hz. Əli mövzusunda yazdığı əsərləri bir araya gətirir. Onu kitab halında, lap həcmcə kiçik olsa da, oxucularına çatdırmaq istəyində olur. Zənnimcə, xeyirli bir təşəbbüsdür. İnsanların mənəvi zənginliyi, əxlaqi saflığı üçün dəyərli bədii örnək ola bilər.

Onun qəsidəsi haqqında ayrı-ayrı müəlliflər kifayət qədər geniş məlumat veriblər. Hacı Cavad məscidinin imamı Hacı Ramil Aslanlı Hz. Əli haqqında yazılanları da yada salır və qəsidədən maraqlı beytləri nümunə gətirərək fikirlərini izah edir. Ədəbiyyatşünas alim Əkbər Əlioğlu da qəsidəni birər-birər təhlil edir. Hətta yazısının sonluğunda Xələflinin həmin qəsidəyə təxmisinə də müraciət edir. Və bu əsərində üstün bədii məziyyətlərini diqqətə çəkir. Bəzən deyirlər ki, dəyərli bədii nümunə üçün heç bir şərhə lüzum yoxdur. Amma mən belə düşünmürəm. Şərhlər, təhlillər, bədii əsərə ədəbi yanaşmalar əsərlə oxucu arasında körpü yaradır, bağlılıq əlaqələri güclənir. Oxucunun əsəri daha yaxşı başa düşməsinə kömək edir. Bu mənada mən Ə.Xələflinin Hz. Əli haqqındakı düşüncələrinə münasibət bildirən müəllifləri təqdir edirəm.

Mən bu qeydlərimdə qəsidədən çox Xələflinin digər əsərlərinə - Əli mədhində yaratdığı təxmislərə, "Əli" rədifli qoşmasına da münasibət bildirmək fikrindəyəm. Xələflinin təxmisi "Aşiqliyin işığında" adlanır və belə bir maraqlı epiqraf da verilib. "Hz. Əli mədhində Xələfli qəsidəsinə Əli Rzanın təxmisi" - yəni müəllif öz qəsidəsini özü təxmis etmişdir. Ədəbiyyat tariximizdə bu tipli örnəklər demək olar ki, yoxdur, yaxud da az rastgəlinəndir. Müəllif təxmis zamanı Azərbaycan dilinin sonsuz imkanlarından uğurla bəhrələnir, hər bəndin əvvəlinə artırılmış üç misranı təkcə formaca yox, həm də məzmunca qəsidənin beytlərinə uyğunlaşdıra bilir. Müəllifin obraza sevgili yanaşması elə ilk bənddən hiss olunur.

Sözümün ünvanında minacətsən, ya Əli,
Boynumuzda haqqın var, əhliyətsən, ya Əli,
Biz beyət edənlərik, sən beyətsən, ya Əli.
Min illərin təzəsi - təravətsən, ya Əli!
Min dürlü haldan keçən təbiətsən, ya Əli!

Müəllif Əli obrazına öz sevgisini sadə mədh kimi yox, az qala, münacat səviyyəsində etiraf edir. Sağlam İslam dini daşıyıcılarının əqidəli durumuna Hz. Əlinin təsirini onun boynumuzdakı haqqı kimi şərh edir.

Bundan sonra müəllif get-gedə poetik yanaşmalarını dərinləşdirir. Müxtəlif obrazlara müraciət edir. Ən ülvi, pak yanaşma ilə Əlinin mənəvi zənginliyini, kimliyini sonsuz poetik tərənnümü ilə təqdim edir. Onun yanaşmasından hiss olunur ki, özünün də mənəvi durumunda Hz. Əli irsinin əvəzsiz rolu var. O, Hz. Əli adına ruhi-mənəvi bağlılığının qırılmazlığını ifadə etmək üçün "of" nidasından da maraqla yararlanır. Yəni, dizləri büküm-büküm olsa belə, min divana çəkilsə də, öz sevgisindən geri durmur. Hətta yazmaq üçün həvəsi olmayanda belə, Əli adının möhtəşəmliyi onun düşüncələrinin mənəvi nizamını təmin edir:

Qəfəsdən çıxsa bülbül çölün kolu, qapısı,
İstəyinə açılsa, sevda qolu, qapısı..,
Söz bilənə qəlbimin sağı, solu - qapısı
Sənsən idrak sahibi - elmin yolu, qapısı,
Sən "Nəhcül-bəlağə"sən, söz, hikmətsən, ya Əli!

Açılsa bar-barxanam, sənsən xəzinəm, yüküm,
"Of" demərəm qatlansa dizlərim büküm-büküm,
Parçalansa yer üzü tərpənməz bircə tüküm.
Nə Allah, nə peyğəmbər, nə hakimsən, nə məhkum,
Fəqət Ərşi - Əlaya bir zinətsən, ya Əli!

Çəkilsəm min divana qanıma qaşıq göndər,
Kimliyimi görməyə sınanmış aşiq göndər,
Küskün ilham pərimlə sülhə barışıq göndər,
Bir qələmdir, bir kağız - qəlbimə işıq göndər,
Güc gəlsin varlığıma - dəyanətsən, ya Əli!

Nitqinin kəsərində qocalmayan gəncavər,
Danışa, dil-dil ötə - hanı elə dilavər?
Sənsən sözün sahibi, mən də sənə bir yavər
Zülfüqar tək qılınc yox, Əli kimi cəngavər,
Haqqın hökmü, qanunu, ədalətsən, ya Əli!

Şübhəsiz, şair üçün mənəvi düşüncələrinin nizamı əsas şərtdir. Əgər sənətkar yazacağı mövzuya mənən hazır deyilsə, uğur qazana bilməz. Amma bu da hələ tam deyil. Qələmə alınan mövzu üçün tarixi bilgi, faktlar əsas şərtdir. Nəhayət, bundan sonra yazarın bəsirət gözü qarşısında mövzu bütün rəngarəngliyi, əlvanlığı ilə mənzərə yaradır.

Xələfli yeri gəldikcə maraqlı ifadələr işlədir. O, tərənnüm etdiyi obrazı bütün düşüncələrinin tacı kimi görür. Bununla da tərənnüm etdiyi obrazı ucalıqlarda, yəni gördüyü kimi təsvir edir. Yazının lap əvvəlində qeyd etdiyimiz kimi müəllif Hz. Əlini bir şəxsiyyət kimi, ali vicdan mücəssiməsi kimi görür. Onun hər bir vaxt haqsızlıqlara qarşı dirəniş göstərməyini bədii sözün gücü ilə oxucuya çatdırır. Əlbəttə, müəllifin yanaşmasında sözə gəlməyən fikir yoxdur. O, ən çətin qavranılan məsələni belə poetik sözün qüdrəti ilə çatdırmaqda mahirdir. Hz. Əlini də məhz zəngin bir kitab kimi tərənnüm edir. Şübhəsiz, bu yöndən yanaşma ilə hər bir insanı da kitab adlandırır. Və insan-kitabların oxunması üçün müəyyən mənəvi enerjinin, yükün olduğunu vacib hesab edir:

Düşüncəmin taxtında sən özünsən tacalıq,
İşığın bəs eləyər olsa bircə bacalıq,
Adına tapınmışam, mənə neylər qocalıq?
Əfsanəsən dillərdə, adın zirvə, ucalıq,
Əbədi nağıl, dastan, hekayətsən, ya Əli!

Vicdanların çəkisi, doğrulara düz əlsən,
Əyrilərin yolunu kəsməyə də yüz əlsən.
Yalanların dilini yandırmağa köz əlsən;
Hələ dünya bilmir ki, axıracan əzəlsən,
Adəmdən Xatəməcən əlamətsən, ya Əli!

Hər sözün min donu var, açılmaz sir kitabdır,
Hansı qəlbə işığın düşübsə nur kitabdır.
Görənlərin gözündə heyrəti hür kitabdır,
Hər insan öz dilində oxunsa bir kitabdır,
Sən kitablar kitabı - kəramətsən, ya Əli!

Sənə xilaf çıxanın iqbalı fəryad aldı,
Dərdi tüğyan elədi, acısı bünyad aldı.
Qəlbinin ölkəsində sevdasını yad aldı.
Kim sənə aşiq oldu, ilhamı qanad aldı,
Qürurun qaynağısan, fəxarətsən, ya Əli!

Əlinin həyat yolu tarixlə sıx ilgilidir. Çünki o, bütün həyatı boyu hadisələrin ən qaynar cərəyan etdiyi yerlərdə həm hərbçi gücü ilə, həm də mənəvi potensialı, məntiqi ilə, bilgisi ilə iştirak edib.

Yuxarıda xatırlatdığımız kimi elə Xəndək müharibəsindəki şücaəti zaman-zaman dillər əzbəri olub. Real tarixi hadisə olsa da, sanki bir əfsanəyə bürünərək insanlara mənəvi və fiziki güc bəxş edir. Həmin Xəndək davası ilə bağlı əhvalatın bir yerində deyilir ki, İslama qarşı vuruşan cəngavər Davud ibn Əbdud öz atından yerə enir, qəzəblə qılıncını çəkərək atın dörd ayağını da qırıb atır. At arxası üstə xəndəyə düşür və yanıqlı-yanıqlı kişnəyir. Sanki bu yanıqlı səslə kişnəyən heyvan Əliyə müraciət edir ki, onun qisasını bu namərddən alsın. Vaxtı ilə dostum Əli Rza Xələfli Xocalı hadisəsi ilə bağlı essesində İslam tarixinin ən təsirli səhifələrindən olan Xəndək davasını yada salır, Xocalı faciəsi ilə bağlı qeyd edir ki, erməni vandalizminin qəddarlıqla məhv etdiyi qocaların, uşaqların ahları, nalələri göy üzündə daim səslənir və xalqımızı qisasa çağırır.

***(Davamı 12-ci səhifədə)***

*(Əvvəli 11-ci səhifədə)*

Göründüyü kimi müəllif həmin xəndək savaşındakı hadisənin mahiyyətini ustalıqla Qarabağ hadisələrinin üzərinə gətirir, bununla da öz fikrinin təsirini daha da artırır. Yəni təxmisdə də Xəndək davası təsadüfi xatırlanmır. Müəllif qeyd edir ki, Hz. Əli sevgisini insanlar əsrlər boyu öz varlıqlarında daşıyıblar. Bu sevgi bu gün də mənəviyyat ocağı kimi adamların ruhunda, təbiətində yaşayır:

Ruhumuza zəfəri haqdan istə, qəzəbsən
Doğru, düzü qovsalar, girsə bəstə, qəzəbsən,
Haqsızlıq qoşun çəkib gəlsə dəstə, qəzəbsən.
Bir köhlən kişnərtisi - Xəndək üstə qəzəbsən,
Qorxu bilməz meydangir - cəsarətsən, ya Əli!

Sinəmizdə qoruduq ocağını, qorunu,
Qəlbimizə yığmışıq işığını, nurunu.
Adından cavab alır ruhumuzun sorunu
Bircə sözün dağıdar min hiylənin torunu,
Qırılmaz məntiqinlə məharətsən, ya Əli!

Zamanların üstündən ruhumuza gəl, şığı,
Şimşəyinlə kəs, dağıt zülməti, qaranlığı,
Qaytar sevən ürəyi, yox olan insanlığı
Qırxların məclisində özün irfan işığı,
Haqqın görən gözüsən, bəsirətsən, ya Əli!

Müəllif sözünün dəyərini yaxşı bilir. Mətn boyu biz müəllifin sözə verdiyi dəyəri hiss edirik. Sözün gücünün nəyə qadir olduğunu biz tərənnümlərdə də hiss edirik. Bu zaman Füzulinin məşhur "Söz" qəzəli yada düşür. Yəni hər kim nə qədərdirsə, sözü də onu elə həmin miqdarda göstərə bilir. Biz Xələflinin qəsidəsinə təxmislə yazılmış şeirinin ümumi axarında müəllifin ilhamını, özü də bütün məqamlarda obraza orijinal yanaşmasını hiss edirik. O, coşqun bir ilhamla düşüncələrini davam etdirir. Müəllif Əlini bir obraz kimi xarakterizə edərkən onun əqidəsinə sadiqliyini, düzlüyünü, doğruluğunu ön plana çəkir. Lap həyatı təhlükədə qalsa belə, yenə də doğru-düzgün danışmağı, cəsarətlə həqiqətin tərəfində durmağı elə bu günün insanına da gərəkli keyfiyyətləridir.

Ə.Xələfli Əlini "piranların piri" adlandırır. Bu ifadə burada müdriklik mahiyyətini əks etdirir. Həm siyyət kimi xarakterizə olunur. Bəzən o, sanki qeybdən xəbər verən bir insan obrazı kimi görünür. Məlumdur ki, zəngin müşahidəsi, dərin biliyi olan hər kəs gələcəkdə baş verən hadisələrin də mahiyyətinə işıq sala bilər. Gələcək haqqındakı düşüncələrində ən sərrast uzaqgörən kimi, öncəgörmə qabiliyyəti olan şəxsiyyət kimi xarakterizə olunur.

Şərq ədəbiyyatda "Cəmşidin camı" obrazı var, Marağalı Əhvədinin də məşhur "Cami cəm" adlı əsəri oxuculara yaxşı tanışdır. Əfsanəyə görə qədim hökmdarlardan biri olan Cəmşidin bir camı olub ki, o, həmin camın içərisinə baxanda maraqlandığı sirlərin cavabını görə bilirmiş. Ə.Xələfli öz əsərində Hz. Əlinin öncəgörmə gücünü Cəmşidin camını xatırlatmaqla təqdir edir. Əlinin təbiəti mükəmməl şəxsiyyət təbiəti kimi xarakterizə olunur. O, ədalətin tərəfində olduğu üçün həmişə sevənlərin, aşiqlərin də haqqının, hüququnun qoruyucusu olub. Görünür, elə bu səbəbdən də bu gün də insanlar Əli adına sonsuz sevgi ilə yanaşır. Təsadüfi deyil ki, "kimdə Əli eşqi vasa, onun doğruluğuna zəmanət də var" deyirlər. Hz. Əli güc-qüvvət rəmzi olduğu üçün haqq savaşında olanlar inamla onun adını dilə gətirir və onun adından güc aldıqlarını bəyan edirlər. II Qarabağ savaşında bir çox gənclər Əli qüdrətinə güvəndiklərini öz çıxışlarında bəyan etməkdən çəkinmirdilər.

Amalımız uğrunda müsəlləh nəfərimiz,
Üzü nura, işığa yolumuz, səfərimiz,
Adınla bəxtimizə yazılar zəfərimiz,
Səpində hünərimiz, biçində sərvərimiz,
Süfrəmizdə duz-çörək, bərəkətsən, ya Əli!

Tükənməz insanlığın yaza, yaya sevgisi,
Payızdan, qışdan keçər günə, aya sevgisi.
Ömürdə çiçək açar axar çaya sevgisi,
Zal oğlunun əzəldən bu dünyaya sevgisi,
Qəlbində Məcnun eşqi, məhəbbətsən, ya Əli!

Bayatıya çəkmişəm yurdu yanan elləri,
Yaddaşımı yandırar qurd ağızlı çölləri,
Könlümü ala bilmir qərib-qərib dilləri,
Varlığımdan əsirdi tənhalığın yelləri,
Qızındım ocağında, hərarətsən, ya Əli!

Bəxtimin səhrasından qəmin karvanı keçdi,
Gözlərim göy üzündə axan ulduzu seçdi,

Üz tutdum, nəğmə dedim bir işıqlı ünvana,
Səcdəyə durdu könlüm min qadanı sovana,
Tutsa əcəl yuxusu, gözlərimdən qovana,
Ayrılıqlar ruhumu çəksə də min divana,
Sığındım adına mən, ləyaqətsən, ya Əli!
Qaçmaram taleyimdən, gözləyərəm qəzamı,
Çəkərəm günahımdan gəlsə haqlı cəzamı,
Girov qoydum sözümə öz adımı, imzamı,
Hələ dünya bilmir ki, bu dağılmış nizamı,
Mizanına qaytaran qiyamətsən, ya Əli!

Beləliklə, təxmis qəsidə ilə həmahəng olaraq belə bir sürəkli ilhamla sonluğa yaxınlaşır. Müəllif böyük iftixarla qeyd edir ki, nəsillər dəyişir və dəyişən nəsillərin fonunda Hz. Əlinin mənəviyyat işığı kimi parlaqlığı zaman-zaman onu görmək istəyənləri cazibəsinə alır.

Və nəhayət, müəllif yenə də Əli eşqi ilə çağlayan sözü tərənnüm edir. O, sözünün ona görə tükənmədiyini, ona görə ilhamla dilində çağlarlıq aldığını bəyan edir ki, öz sözünün qaynağı Hz. Əli obrazıdır. Bütün hallarda Əli obrazını tərənnüm edən sözü onun varlığına sanki yaz gətirir, bahar bəxş edir. Bu duyğularla yaşamağın mənəvi rahatlığı ona sonsuz bəxş edir. Qəsidə sona yaxınlaşdıqca müəllif sözünün ahəngini sanki obrazı tamamlayan duyğuların mətnə gətirilməsinə sərf edir.

O qeyd edir ki, hər hansı bir şəxs əgər bir saray qurmaq istəyirsə, Əli şövqünü, Əli iradəsini yaddaşına gətirirsə, demək, uğur onun nəsibi olacaq:

Nəsillərə əmanət yaddaş borcu, yad borcu,
Hərislərə göz dağı ah borcu, fəryad borcu
Ruhlara ətir saçan adın bizə dad borcu,
Vəsfini sözə çəkdim - sevgi borcu, ad borcu,
Sən borclardan keçənsən, səxavətsən, ya Əli!

Söz çağladı qəlbimdən heyran oldum avaza,
Ruhumun təbiəti döndü bahara, yaza.
Baxmadım ümmanında nə dərinə, dayaza,
Əli şövqü, eşqinə gördüm ki, yaza-yaza
Mənaların qibləsi, mahiyyətsən, ya Əli!

Açılar, şölələnər səni görən göz nuru,
Şəninə deyilənlər yazılsa, hər söz duru,
Kim sənə könül verdi, nəsib oldu uğuru,
Dağların məğrurluğu, zirvələrin qüruru,
Yenilməzlik heykəli, şəxsiyyətsən, ya Əli!

# SEVGİLƏRİN SONU YOXDUR,

## *yaxud "Aşiqliyin işığında" kitabı üzərində düşüncələr*

də məhz pir olan kəs, yəni müdrik olan kəs Əlinin kimliyinin mahiyytinə varmaq imkanında olar. Dəfələrlə qeyd olunduğu kimi, Hz. Əli rəvan təbə, gözəl nitqə malik olan bir natiq kimi tanınıb. O hər hansı bir mövzuda elə əhatəli, elə duyğulu danışarmış ki, onun nitqlərindən kimsə bezməz, yorulmazmış. Elə indinin özündə də onun xütbələrinin necə canlı olduğunu bircə oxunuşla da duymaq olar. Təxmisin müəllifi Əlinin natiqlik qabiliyyətini də sonsuz bir istəklə tərənnüm edir:

Hər kəsin miqdarını öz sözündə görənsən,
Könüllərin bağından sevgi gülü dərənsən,
Məzluma xəta gəlsə, sən sinəni gərənsən,
Hər kəsə öz dilində haqqı nişan verənsən,
Millətlərin birliyi - cəmiyyətsən, ya Əli!

Yoluna sadiq olub, üzü görkə yar oldun,
Canı qurban eyləyən - sevən ərkə yar oldun.
Anlayana, bilənə - haqqı dərkə yar oldun.
Həm ərəbə, əcəmə, həm də türkə yar oldun,
İnsan oğlu insansan - nəcabətsən, ya Əli!

Piranların pirisən, pir bilər səni pir kəs,
Allaha agah olar örtüdə qalmaz sir kəs,
Deyərəm qüdrətini məndən soruşsa bir kəs
Əl ətəkdən üzülsə, göz dikər sənə hər kəs,
Ümidlər qırılanda güc, qüvvətsən, ya Əli!

Nitqimin çəmənində əbədi bir baharsan,
Sərhədsiz düşüncəmdə məmləkətsən, diyarsan.
Sinəm üstə Yanardağ, məşəlimsən - yanarsan,
Ruhumda, varlığımda hara dönsəm sən varsan,
Mən bilirəm sən kimsən, nə qüdrətsən, ya Əli?!

Əli tarixi mənbələrdə bəsirət gözü açıq olan şəx-

Göyərən arzuları bu zalım dövran bıçdı,
Bu qəsidə qəlbimin bulağından qan içdi,
Arx çəkdim sözlərimə - bir fürsətsən, ya Əli!

Müəllif qəsidədə, eləcə də, təxmisdə mövzuya bütün varlığı ilə bağlı olub. Ona görə də sözünün qəlbindən qan içdiyini qeyd edir. Çünki Əli əqidəsi uğrunda həlak olan şəhidlərin bayraqdarlarından biridir. Müəllif Əlini ədalətli hakim kimi qavradığı üçün sonralar işğalçılıq niyyəti ilə Azərbaycanı talan edən qüvvələrin İslami məramdan sui-istifadə etdiklərini də düşüncələrində bu və ya digər şəkildə bəyan edir. O çox böyük sevgi ilə bəyan edir ki, Əli mükəmməllik obrazı olaraq bu gün də bizim mənəvi mühitimizdə yer tutur. Onun ən çətin məqamlarda varlığımıza sirayət edən təbiəti bizə mənəvi güc verir, bizi doğru yola yönəldir. Çox maraqlı yanaşma ilə mənəvi mühitindəki Hz. Əli hakimliyinə xüsusi dəyər verir. O, həzrəti özünün, ruhunun loğmanı, hakimi adlandırır. Əlinin mənəvi irsindən qidalanaraq mənəvi xəzinəsini zənginləşdirdiyini bəyan edir. Ən çətin məqamlarda belə onun adına təpınmaqla təskinliyindən ovunur.

Könlümə qonaq gəldin, mən demədim sən kimsən,
Ruhumun loğmanısan, gözlədiyim həkimsən,
Əqidəmin işığı, inamımda kökümsən,
Sən şair Əli Rzanın ürəyinə hakimsən,
Ədəb-ərkan hamisi, xitabətsən, ya Əli!

Söz götürdüm, söz yığdım, doldurdum dükanımı,
Adına güvəncimlə göstərdim imkanımı.
Könüllərə sevgimdən ucaltdım kurqanımı,
Nankorlar viran qoydu yurdumu, məkanımı,
Qarabağsan içimdə, qəm, möhnətsən, ya Əli!

Əli Rzaya mən dedim, sözü bilən kəsə yaz,
Urvatda saxla sözü, haqdan gələn səsə yaz,
İlhamından gələni yol boyu nəfəsə yaz,
Bu yerdə Xələfli də dedi sözü kəsə yaz:
Düşüncəsi kasada zehniyyətsən, ya Əli!

Müəllif təxmisin axıcı ahəngi ilə fikirlərini uyğunlaşdırır. Sanki Əli təbiətinə uyğun və çox güman ki, Əlinin hikmət xəzinəsindən nurlanan duyğu və düşüncələrini sanki aforizm gücündə olan ifadələri ilə sona doğru yön alır. Onsuz da həyat çox rəngarəngdir. Dünən doğru olan bu gün sanki qeyri-doğru kimi qavranılır. Amma hz. Əli mövzusu zaman keçdikcə təqdir olunmaqda davam edir. Hətta onun adına, ünvanına tənqidi rəylər səsləndirmək istəyənlər belə güclü müqavimətlə rastlaşırlar, çünki Əli öz zamanında da onun obrazının şişirdilməsinə qətiyyən yol vermirdi. Hətta onu Allah kimi xarakterizə etmək istəyənlər belə hz. Əlinin qəzəbinə gəlir və cəzalanırdılar. Əlinin üstün cəhəti onun bir insan olaraq özünə sadiqliyində daha qabarıq görünür.

Təsadüfi deyil ki, Əlinin mükəmməlliyi, şəxsiyyət kimi bütövlüyü, mənəvi zənginliyi öz dövründə də müəyyən qısqanclıqlar doğurub. Hətta indi də elələri tapılır ki, onun sağlam mənəvi həyatından yaşarı olan məlumatları əsassız hesab etməyə cəhdlər göstərirlər. Söz yox ki, bu xəbis yanaşmaların heç birisi onun zəngin mənəvi irsinin, sevilən şəxsiyyətinin üzərinə kölgə sala bilməz. Müəllif qətiyyətlə öz fikirlərini Əliyə olan sonsuz sevgisi ilə yekunlaşdırır:

Xain əldən, pis dildən aldın xəbis yarası,
Sevdalı ürəklərin xalda yanar qarası
Qəlbimin ahəngidi hər misranın sırası
Can bədənə verildi olum-ölüm arası,
Sən ümmətin ruhuna əmanətsən, ya Əli!

*(Davamı var)*